***Ömər Faiq Nemanzadənin doğumunun***
***150 illiyinə ithaf olunur***

*Elmi redaktor*
*akademik Nailə Vəlixanlı*

**Ömər Faiq Nemanzadə.** Fotoalbom (Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyası əsasında).
Tərtibçilər: Fərhad Cabbarov, Ülvi Pepinova. Bakı: ........., 2022, 48 s.

Milli Azərbaycan Tarixi Muzeyi

# ÖMƏR FAİQ NEMANZADƏ

FOTOALBOM

*(Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyası əsasında)*

Milli Azərbaycan Tarixi Muzeyinin fondları hər il xalqımızın tarixinin və mədəniyyətinin müxtəlif səhifələrini əks etdirən yeni materiallarla zənginləşir. Həmin materiallar arasında ölkəmizi bu və ya digər şəkildə tanıdan, tarix salnaməsinə öz adlarını həkk etdirən məşhur insanların şəxsi əşyaları, fotoşəkilləri, sənədləri əsas yer tutur. 2022-ci ilin avqustunda muzeyin kolleksiyası tanınmış publisist, naşir, pedaqoq, ictimai-siyasi xadim Ömər Faiq Nemanzadəyə (1872-1937) aid materiallarla zənginləşdi. Nəvəsi Fuad İsgəndər Pepinov və nəticəsi Ülviyyə Fuad qızı Pepinova Ömər Faiq Nemanzadənin, həmçinin onun ailə üzvlərinin, məsləkdaşlarının unikal fotoşəkillərini muzeyə hədiyyə etdilər. Ömər Faiq əfəndinin varislərinin belə bir nəcib addımının onun bu il tamam olan 150 illik yubileyi ilə üst-üstə düşməsi hadisəni daha da əlamətdar etdi.

Ömər Faiq Nemanzadə Azərbaycanın, eləcə də bütün türk dünyasının ictimai-siyasi fikir tarixində, publisistikasında silinməz iz qoymuşdur. Onun yaradıcılıq irsinin Azərbaycan tarixinin XIX əsrin sonu-XX əsrin əvvəlləri dövrü ilə birbaşa bağlı olduğunu, həmin dövrün bir növ aynası rolunda çıxış etdiyini mübaliğəsiz söyləmək olar. Ömər Faiq əfəndi Azərbaycandan uzaqda – Tiflis quberniyasının Axıska türklərinin məskunlaşdığı Ahalsıx qəzasının Azqur kəndində doğulsa da, onun 65 illik ömrünün bir qərinəsi Azərbaycanla, Azərbaycanın maarif, təhsil, mətbuat tarixi ilə bağlıdır.

Ömər Faiq Nemanzadə gəncliyindən mübariz, öz mövqeyində qəti, prinsipial olmuşdur. Anasının təkidi ilə dini təhsil almaq üçün İstanbula getsə də, dünyəvi təhsilə maraq onu valideyninin istəyinə zidd olaraq İstanbul Fateh Mədrəsəsini yarımçıq qoymağa vadar etmişdi. “Darüş-şəfəq” məktəbində təhsil aldıqdan (1883-1891) sonra gənc Ömər Faiq İstanbulda inqilabçı gənclərə qoşulur, onlarla əməkdaşlıq edir. Sultana müxalif olan dərnəklərin gizli fəaliyyətinin üstü açılandan sonra o, doğma Azqur kəndinə dönmək məcburiyyətində qalır. İstanbuldakı mühitin təsiri ilə ictimai-siyasi dünyagörüşü müəyyən mənada formalaşmış 20 yaşlı gəncin vətəndə rastlaşdığı vəziyyət isə tamam fərqli idi – cəhalət, fanatizm, xalqın böyük əksəriyyətinin təhsilsiz olması, mövhumatçı din xadimlərinin əhali üzərində şəksiz hökmranlığı. Onun burada xalqına xidmət etmək məqsədi ilə göstərdiyi ilk təşəbbüs uğursuz olur. Belə ki, doğma Azqurda yeni məktəb açmaq cəhdi müqavimətə rast gəlir və Ömər Faiq arzusuna nail ola bilməyərək doğulduğu kəndi tərk edir.

1894-cü ildə Ömər Faiq Nemanzadə Azərbaycana – Şəkiyə gəlir və burada açılmış ilk üsuli-cədid (yeni üsul) məktəbində müəllim işləyir. Müəllimliklə yanaşı Şəki camaatı arasında geniş maarifçilik işi aparır, elmin, təhsilin əhəmiyyətini, mədəni yaşayışın üstünlüyünü onlara başa salırdı. O, həmçinin gənc müəllimləri ətrafına toplayıb teatr tamaşaları verirdi. Göründüyü kimi, Ömər Faiq əfəndinin Şəkidəki pedaqoji fəaliyyəti sədəcə tədrislə məhdudlaşmırdı, həmin dövrün bütün maarifçiləri və müəllimləri kimi, o da xalqın savadlanması və inkişafı üçün var-qüvvə ilə çalışır, insanları elmə, təhsilə çağırırdı.

XIX-XX əsrin əvvəllərində Azərbaycan xalqının vəziyyəti Rusiya imperiyası tərkibində yaşayan müsəlman xalqlarının düçar olduğu vəziyyətdən az fərqlənirdi. Bir tərəfdən müstəmləkə istibdadı, milli dilin, təhsilin, mədəniyyətin inkişafı yolunda yaradılan süni maneələr, hüquqların məhdudlaşdırılması, digər tərəfdən, yerli ruhanilərin xalqın geriliyindən istifadə edərək mövhumatçılığı yayması bütün müsəlman xalqlarında olduğu kimi Azərbaycan cəmiyyətində də tərəqqinin qarşısını alan əsas səbəblər idi. Məhz bu dövrdə milli ziyalılar anadilli məktəblər, dünyəvi təhsil, milli mətbuat uğrunda fəal mübarizəyə qalxdılar. Ömər Faiq Nemanzadə özü bu mübarizənin vacibliyini belə izah edirdi: *"Keçmiş həyatın, adətin doğurduğu üsul və həyatı yıxıb təzə yollara keçmək üçün uzun-uzadı ictimai, inqilabi və elmi hazırlıq lazımdır. Bunsuz, bu hazırlıqsız yeni bir maarif və mədəniyyət işi görmək və görülən işdə müvəffəqiyyət qazanmaq çətindir."*

"Təzə yollara keçmək üçün" Ömər Faiq Nemanzadə öz müasirləri – Əhməd bəy Ağaoğlu, Firidun bəy Köçərli, Üzeyir Hacıbəyli və başqaları kimi pedaqoji fəaliyyətlə yanaşı mətbuat səhifələrində də günün aktual problemlərinə həsr olunmuş məqalələrlə çıxış edirdi. İlk yazılarından biri Bağçasarayda çıxan "Tərcüman" qəzetində dərc olunmuş və bu yazıda Qafqazın timsalında demək olar ki, Rusiyanın müsəlmanlar yaşayan bütün bölgələri üçün xas olan acınacaqlı vəziyyət əks edilmişdi. Ömər Faiq əfəndi yazırdı: *"...Camaatımız çox rahatdır. Nə yeni məktəbimiz var, nə də əski! Camaatımız mərhəmətlidir. Sənət məktəbinin bir xeyli xərcini çəkib erməni, yəhudi və gürcü ətfalını [uşaqlarını – F.C.] məccani [pulsuz – F.C.] oxutdurur... Maarifimiz də o dərəcədədir ki, dörd saatlıq yolu olan Qori darülmüəllimində bizdən ancaq bir müsəlman var. Camaata rəhbər olacaq dövlətlilərimiz, bəylərimiz az deyil. Heyif ki, maarifə, millətə olan hümmətləri pək azdır. Bu səbəbdən camelərimiz viran, məktəblərimiz pərişan, halımız yamandır."*

1903-cü ildə həyatını Tiflislə bağlayan Ömər Faiq Nemanzadə burada Məhəmmədağa Şahtaxtlının redaktorluğu ilə Azərbaycan türkcəsində çıxan "Şərqi-Rus" qəzeti ilə əməkdaşlıq etməyə başlayır. Tiflisə köçməsi Ömər Faiq əfəndinin həyatında, eləcə də bütövlükdə Azərbaycan mətbuatı, milli ictimai fikir tarixində dönüş nöqtəsi sayıla biləcək bir hadisənin başlanğıcını qoyur. 1903-cü ildə Tiflisə gələn böyük Azərbaycan ədibi Cəlil Məmmədquluzadə Ömər Faiq Nemanzadə ilə tanış olur və onlar birlikdə "Şərqi-Rus"da çalışmağa başlayırlar. 1905-ci ildə iki dost, iki məsləkdaş "Şərqi-Rus" mətbəəsini satın alır və ona "Qeyrət" adı qoyurlar. Yeni mətbəəni *"məhz milli əsərlərin nəşrinə vasitə olmaq"* niyyəti ilə açıldığını vurğulayan Ömər Faiq əfəndinin "Nəşri-asarə dəvət" ("Əsərlərin nəşrinə dəvət") əsəri "Qeyrət" mətbəəsinin buraxdığı ilk kitab idi. Ömər Faiq Nemanzadə yazırdı: *"Bizim üçün istifadə və tərəqqi qapısını imdilik, top, tüfəng və dinamit vasitəsilə açılmaz. Biz bu gün ancaq hər qüvvətin, hər xahişin, hər fikrin anası və kökü olan maarif və mətbuat olduğunu bilməliyik. Maarif və mədəniyyətin bu gün ən birinci vasitəsi, ən qüvvətli naşiri isə kitab və qəzetlərdir – mətbuatdır."*

Ömər Faiq Nemanzadə-Cəlil Məmmədquluzadə tandeminin ikinci böyük uğuru 1906-cı ilin aprelində bütün müsəlman Şərqində məşhurlaşmış satirik “Molla Nəsrəddin” jurnalının nəşri olmuşdu. Cəlil Məmmədquluzadə Ömər Faiq Nemanzadə ilə tanışlığına və əməkdaşlığına yüksək qiymət verərək yazırdı: *“Yoldaşım Faiq Nemanzadəni mən birinci dəfə “Şərqi-Rus” qəzeti idarəsində gördüm və burada da onunla üns tutdum... Bu qəzetin idarəsində mən elə bir yoldaşa rast gəldim ki, onun varlığı ilə, onun yoldaşlığı ilə “Molla Nəsrəddin” məcmuəsini bina etdim. Daha doğrusu, onunla bərabər, onunla birlikdə “Molla Nəsrəddin” məcmuəsini bina etdik.”* Cəlil Məmmədquluzadə dəfələrlə qeyd edirdi ki, Faiq əfəndi olmasa idi, o, jurnalı çıxara bilməzdi; məhz onun varlığı ilə, onun yoldaşlığı ilə “Molla Nəsrəddin” işıq üzü görə bilmişdir. Jurnalın redaktoru Cəlil Məmmədquluzadə, əsas yazanı isə Ömər Faiq Nemanzadə idi, həmçinin Mirzə Cəlil olmayanda Ömər Faiq onu redaktor vəzifəsində əvəz edirdi.

“Molla Nəsrəddin” jurnalının birinci nömrəsinin bütün yükü bu iki məsləkdaşın üzərinə düşmüşdü. Materialların hamısını özləri hazırlamış, şəkillərin mövzularını özləri vermiş, teleqraf xəbərlərini, tapmacaları da bir yerdə tərtib etmişdilər. Ömər Faiq əfəndi öz xatirələrində yazırdı ki, onlar “Molla Nəsrəddin”in planını müəyyənləşdirərkən jurnalın “mütləq şəkilli olmasına” fikir vermək qərarına gəlmişlər. Çünki yenə də onun fikrincə, xalq öz düşmənlərinin “canlı surətdə, gülməli şəkildə” məsxərəyə alındığını, ifşa edildiyini görəndə sevinəcək, “Molla Nəsrəddin”in simasında öz himayəçisini görəcəkdir. Belə də oldu. Ömər Faiq Nemanzadə xatırlayırdı: *“Jurnala olan rəğbət ancaq və ancaq geniş kütlə tərəfindən idi. Bəylərdən, dövlətlilərdən, ruhanilərdən ətək-ətək söyüş, lənət və hədə kağızları alırdıq. Jurnala yuxarıdakı təbəqədən lənət, nifrət yağır, əməkçi deyilən aşağı təbəqədən isə hörmət qalxırdı. Birinin incidiyini, qəmləndiyi nisbətdə o birinin sevincini artırırdı...”* “Molla Nəsrəddin” jurnalı xalqın avamlıq, cəhalət, fanatizm aləmindən xilas olmasına çalışır, ictimai mühitin dəyişilməsini tələb edirdi. Məhəmmədəmin Rəsulzadə Ömər Faiq Nemanzadənin xidmətlərini qeyd edərək yazırdı: *“Faiq əfəndi Cəlil Məmmədquluzadə ilə bərabər nəşr eylədiyi “Molla Nəsrəddin” məcmuəsi vasitəsilə cəhalət pərdəsi ilə örtülü olan qara qəlbləri yaxıcı qələmi ilə yaxırdı. O, binəzir [görülməmiş – F.C.] bir cəsarətlə müqəddəs zənn olunan hər namüqəddəsə var qüvvəsilə çarpır, bütün vicdanı ilə hər növ vicdansızlıqlara qarşı protesto edirdi.”*

Cəlil Məmmədquluzadə və Ömər Faiq Nemanzadə öz ətrafına dövrün ən qabaqcıl ziyalılarını – Mirzə Ələkbər Sabiri, Əli Nəzmini, Əbdürəhim bəy Haqverdiyevi, Əliqulu Qəmküsarı, Məmməd Səid Ordubadini, Əzim Əzimzadəni, Oskar Şmerlinqi və b.-nı toplamış, mətbuat və ədəbiyyat tariximizdə “mollanəsrəddinçilər” məktəbinin təməlini qoymuşlar. Jurnalın 10 illik yubileyi münasibətilə yazdığı məqalədə Məhəmmədəmin Rəsulzadə “Molla Nəsrəddin”in dörd əsas sütun üzərində qurulduğunu qeyd edərək, onları belə sıralamışdı: Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Mirzə Ələkbər Sabir və “mollanəsrəddinçi” rəssamlar...

XX əsrin əvvəllərində Azərbaycan ictimai fikir tarixində ən çox müzakirə edilən və eyni zamanda ən ciddi diskussiyalara səbəb olan mövzulardan biri milli kimlik, milli özünüdərk məsələsi idi. Milli identiklik axtarışında olan intellektual elitanın nümayəndələri, dövrün ən tanınmış aydınları – Məhəmmədağa Şahtaxtlı, Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Məhəmmədəmin Rəsulzadə və b. azərbaycanlıların özlərini və dillərini necə adlandırması, dini və etnik kimlik arasında fərqlər mövzularına dair bir-birindən dəyərli və maraqlı məqalələr həsr etmişlər. Bunların arasında Ömər Faiq əfəndinin 1917-ci ildə "Qardaş köməyi" dərgisində çıxan "Mən kiməm?" adlı məqaləsi önəmli yer tutur. Etnik amilin dini özünüdərkdən daha üstün və XX yüzilin millətlər əsri olduğunu öz məqaləsində vurğulayan müəllif yazırdı: *"...Ey qafqazlı türk, sən çoxdan islam qeyrətini çəkirsən və bu qeyrətlə, hətta öz varlığını, öz adını da itirmişdin. Sən islam uğrunda o qədər çalışmış, əqidə qovğalarında o qədər zərər çəkmiş, o mərtəbə yorulmuşsan ki, axırda bu gün onların adlarını çəkmək istəməyib təkcə müsəlman olmaq xəyalına düşmüsən... Sən hər şeyi öyrənmək istədiyin halda niyə bircə zadı – yəni özünü bilmək istəmirsən, niyə öz varlığından, öz vücudundan, öz soy və nəslindən xəbərin yox? Niyə sənə "Kimsən?" dedikləri vaxt həqiqi cavabında aciz qalırsan? Niyə sadəcə deyə bilmirsən ki, mən türkəm. Niyə deyə bilmirsən ki, şiəlikdən, sünnilikdən, babılıqdan əvvəl sən türk idin. İndi də türksən və bundan sonra da türk qalacaqsan?"*

Qeyd edək ki, Ömər Faiq Nemanzadənin bu məqaləsi yuxarıda adları qeyd olunan ziyalıların milli kimlik probleminə dair əsərlərindən xeyli sonra yazılmışdı. Ömər Faiq əfəndi 1917-ci ilin mayında – "xalqlar həbsxanası" adlandırılan Rusiya imperiyasının süqutundan sonra dərc etdirdiyi həmin məqalə ilə milli düşüncə tariximizdə bu problemin konseptual əsaslarının işlənilməsinə bir növ yekun vurmuş və türk-müsəlman xalqları üçün etnik identikliyin dini identiklikdən daha üstün olmasını bir daha təsdiqləmişdi. "Mən kiməm?" məqaləsində həmçinin Ömər Faiq əfəndinin daha çox millətçi siyasi baxışlara üstünlük verməsi də diqqəti çəkir. Belə ki, o, yazırdı: *"...İndinin siyasi fəlsəfəsi tərəqqiyi millətçilikdə görüyor. Zamanın şövkət və səxavət binası millətçilik bünövrəsi və təməli üstündə quruluyor. Əsrin ruhu azad millətçiliklə bəsləniyor, böyüyor. Keçmiş əsrlərin, keçmiş siyasi əqidələrin cızdığı coğrafiya sərhədlərini indiki etnoqrafiya yavaş-yavaş pozuyor..."*

1917-1918-ci illərdə Ömər Faiq Nemanzadənin fəaliyyətində yeni bir mərhələnin başlandığını görürük. Bu dövrdə o, doğma Ahalsıx qəzasında yaşayır və müəllimliklə məşğul olurdu. Lakin Rusiyada monarxiyanın devrilməsi, Birinci Dünya müharibəsinin davam etməsi, Cənubi Qafqazda yeni siyasi vəziyyət Ömər Faiq əfəndinin həm də siyasi xadim kimi çalışmasına öz təsirini göstərmişdi. 1918-ci ildə o, Ahalsıxdakı Milli Komitənin sədri seçilir və yerli müsəlmanların hüquqları uğrunda çalışır. Məhəmmədəmin Rəsulzadə yazırdı ki, Ömər Faiq əfəndi Axıskanın milli hərəkatını *"idarə edən"*, bu hərəkata *"ruh verən, onu məfkurəvi bir şəklə qoyan"* siyasi xadim idi. Bu fəaliyyətinə görə Gürcüstan hökuməti tərəfindən təqib və həbs olunan Ömər Faiq

Nemanzadə 1919-cu ildə həbsxanadan azad edildikdən sonra Bakıya qayıdır. O, Azərbaycan Cümhuriyyətinin Daxili İşlər Nazirliyində çalışır.

Cümhuriyyətin süqutundan və Cənubi Qafqazın sovetləşməsindən (1920-1921) sonra Ömər Faiq Nemanzadə bir müddət Tiflisdə partiya vəzifəsində çalışır, 1923-cü ildə yenidən Azərbaycana qayıdır, burada pedaqoji fəaliyyətlə məşğul olur. Dövrün bir çox ziyalıları kimi Ömər Faiq əfəndi də sovet repressiyalarının qurbanı olmuşdur. 1937-ci ilin iyulunda Ahalsıxda dincələrkən onu həbs edir və oktyabrın 10-da Tbilisidə güllələyirlər. Yalnız 21 il sonra – 1958-ci ildə ona bəraət verilir. Təəssüf ki, məzarı indiyədək tapılmamışdır.

Ömər Faiq Nemanzadənin ailəsinin də sonrakı həyatı məşəqqətli idi. Oğlu Kamil, bacısı oğlanları Əhməd bəy və Məhəmməd bəy Pepinovlar, digər qohumları uydurma ittihamlar əsasında həbs olunmuş, bəziləri Sibirə sürgün edilmiş, bəziləri isə güllələnmişlər. Sağ qalan ailə üzvləri – yoldaşı Abidə xanım, qızları Kamilə, Bəxtli və Adilə Nemanzadələr isə təqiblərə məruz qaldılar. Uzun müddət Ömər Faiq Nemanzadənin adı rəsmi sovet idelogiyası tərəfindən yasaq olunmuşdu, onun xidmətləri haqqında yazmaq və danışmaq qadağan idi. Yalnız Stalinin ölümündən sonra başlanan “mülayimləşmə” dövrü repressiyaya uğramış bir çox ziyalıların, o cümlədən Ömər Faiq əfəndinin üzərindən “xalq düşməni” damğasını götürdü, onların irsinə yenidən maraq oyatdı.

Ömrünü türk və müsəlman xalqlarının maarifinə, mədəni tərəqqisinə həsr etmiş böyük fikir adamı, publisist, pedaqoq Ömər Faiq Nemanzadənin həyatı və fəaliyyəti insanın seçdiyi yola, əqidəsinə sadiqlik nümunəsi, onun irsi isə Azərbaycan ictimai-siyasi, təhsil, mətbuat tarixinin öyrənilməsi üçün əvəzolunmaz mənbədir.

Oxucuların diqqətinə təqdim olunan bu fotoalbom təkcə Ömər Faiq Nemanzadənin və onun ailə üzvlərinin həyat salnaməsini əks etdirmir. Burada həmçinin Azərbaycanın ictimai həyatında, təhsil və maarifində xidmətləri olmuş bir çox insanların fotoşəkillərinə də rast gəlinir. Ömər Faiq əfəndinin ana tərəfdən qohumları olan məşhur Pepinovlar nəslinin nümayəndələrinin, həmçinin Şəfiqə xanım Əfəndizadənin, Məmmədzəki və Münirə xanım Dursunzadələrin bəzi fotoları ilk dəfə məhz bu albomda nəşr olunur. Fotoalbom üzərində çalışarkən Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyasında Ömər Faiq Nemanzadənin vizit kartı və maraqlı bir şəkil də aşkar olunmuşdur. Ömər Faiq əfəndinin Gəncə Kənd Təsərrüfatı Texnikumunun müəllim və tələbələri ilə birgə əks olunduğu həmin fotoşəkil 1924-cü ildə çəkilmiş, 1992-ci ildə isə Azərbaycan təhsil tarixinin ən mükəmməl bilicilərindən olan muzeyin qocaman əməkdaşı Nərmin xanım Tahirzadə tərəfindən digər materiallarla birgə toplanaraq muzeyə təhvil verilmişdir. Həm bu şəkil, həm vizit kartı, həm də Nemanzadələr-Pepinovlar ailəsinin hədiyyə etdiyi şəkillər MATM-nin Sənədli mənbələr fondunda (SMF) qorunur.




***Ömər Faiq Nemanzadə məktəb illərində. 1870-ci illərin sonu-80-ci illərin əvvəli. Ahalsıx***
*Şəklin arxasında "Ömər Faiq Nemanzadənin bu şəkli nəvəsi Fuada yadigar verilir" yazılıb. SMF, № 5736*

Ömər Faiq ilk təhsilini Azqur kənd molla məktəbində almışdı. Bu dövrdə kənddə həm də dövlət məktəbi açılmışdı və burada mollaxanadan fərqli olaraq daha mütərəqqi təlim metodları tətbiq olunurdu. Ömər Faiq Nemanzadə oxuduğu illəri, iki məktəb arasında necə seçim etdiyini öz xatirələrində belə təsvir edirdi: *"...Mən arkadaşlarıma dedim ki, gəlin molla məktəbinə daha getməyək, gedək hökumət məktəbində oxuyaq. Eşitmişəm, orada nə fələqqə var, nə də dəyənək. Diz üstə oturub sallana-sallana başımız ağrıyır, bacaqlarımız əzilir. Həftələrlə "rəbb yəsürr" əzbərləyirik. Deyirlər, orada qəribə-qəribə nağıllar oxuyurlar. Mən özüm gördüm, rahat sıralarla otururlar, saatda bir çölə çıxıb oynayırlar. Hətta müəllim özü də uşaqlarla bərabər gəzir, oynayır, gülür. Mən sabah təzə məktəbə gedəcəyəm."* Lakin gəncin bu arzusu anası tərəfindən müsbət qarşılanmır və o, oğluna *"Sən onun-bunun sözünə baxma, o kafir məktəbini burax, yenə müsəlman məktəbinə get, Quran oxu, adam olmağa çalış"* nəsihətini verir. Ömər Faiq xatırlayırdı: *"...Mən anama qarşı heç bir şey demədim. Evdən uzaqlaşınca əlimi cibimə uzatdım, konfetdən, şəkərləmədən dadmağa başladım. Bunları yeyı-yeyə həm gedir, həm də düşünürdüm: molla məktəbinəmi, rus məktəbinəmi? Molla məktəbində bundan sonra mənim qorxduğum fələqqə, anamın ismarlamasına görə, mənim üçün olmayacaq, müəllim mənə hörmət göstərəcək. Bunlarla bərabər ciblərim tez-tez dadlılar, meyvələrlə dolacaq. Rus məktəbində isə şən və azad oxumaq, "Tülkü və qarğa" nağıllarını eşitmək, bol-bol gəzmək və oynamaq. Bunları düşünə-düşünə iki məktəbin ayrılığına çatdım. Ürəyimdə öz-özümə düşündüm: Hara? Köhnəyəmi? Təzəyəmi? Bir dürlü kəsdirəmədim. Anamın dadlı yeməklərini düşündükcə məndə köhnəyə qarşı meyl artırdı. Axırda molla məktəbinə tərəf döndüm. Məktəbə yaxınlaşdım, gördüm ki, molla bu gün gecikmiş, cocuqlar bir-birlərini yeyir, məktəb toz-torpaq içində. Düşündüm: mən yenə axşama qədər diz üstə otura-otura bacaqlarım əziləcək. Anlamadığım sözləri əzbərləyə-əzbərləyə başım ağrıyacaq. Burada nə var? Əlbəttə, təzə məktəb yaxşıdır. Orada həm yüngül oxumaq, nağıl eşitmək, həm də bol oynamaq var. Yox, mən buranı istəmirəm, deyərək təzə məktəbə doğru qaçdım. İçəri girməyə utandım. Pəncərədən içəri həsrətlə baxmağa başladım. Müəllim məni görən kimi içəri çağırdı. Bu məktəbdə oxumaq istəyib istəmədiyimi soruşdu. Mən "istəyirəm" – deyən kimi məni oxşayıb ön sırada oturtdu. Burası canıma isindi, mən də qaldım. Məktəbdən qayıdanda utandığımdan daha evə gedə bilmədim, xalamgilə getdim... Anam mənim evə gəlmək istəmədiyimi, qohumların qınamasını eşitdikcə daha məndən əl çəkdi. Mən də rahat-rahat təzə məktəbə davam etdim."*




***Ömər Faiq Nemanzadə məktəb dostu İsmayıl Nuri Haqqı ilə. 1870-ci illərin sonu-80-ci illərin əvvəli. Ahalsıx.*** *SMF, № 5737*

Ömər Faiq Nemanzadə xatırlayırdı ki, molla məktəbini yarımçıq qoyub hökumət məktəbinə getmək qərarına gələndə dostu İsmayıl onun bu fikrini dəstəkləmişdi:

*"Arkadaşım İsmayıl bir az düşünüb:*

*- Mən də səninlə gedərəm, - dedi.*

*Ertəsi günü ikimiz də molla məktəbi yerinə hökumət məktəbinə getdik. Qalan iki arkadaşım atalarının qorxusundan ağlaya-ağlaya molla məktəbinə getdilər..."*

Daha sonra Ömər Faiq əfəndinin xatirələrində oxuyuruq: *"Təzə məktəbdə bir neçə il oxuyandan sonra atam məni Qori seminariyasına vermək fikrinə düşdü. Bunun üçün birlikdə Ahalsıx şəhərinə getdik. Atam oradan Qoriyə ərizə göndərib Azqura qayıtdı. Mən şəhərdə dayım Qazi Əbdülhəmid əfəndinin yanında qaldım, ərizənin cavabını gözlədim. Çox keçmədi qəbul cavabı gəldi. Mən sevincimdən bir yerdə otura bilmir, bu böyük müjdəni bacılarıma, arkadaşlarıma xəbər vermək üçün kəndə getməyə can atırdım... Mən Qoriyə hazırlaşırkən evdə atamla anam arasında hər gün söz-sov olurdu. Evimizdə ilk dəfə gördüyüm bu halın səbəbini anlaya bilmirdim. Qoriyə getməmə az qalmışdı ki, bir iş meydana çıxdı: məgər anam məni Qoriyə, kafirlərin içinə göndərməyə razı olmur, atam isə bu zamanda rusca bilmək lazım olduğunu irəli sürərək Qoriyə göndərmək üstündə bərk dayanırdı. Mən isə nə olursa olsun, Qoriyə getmək istəyirdim... Axırda anamın bəxti gətirdi. Atam azarlı bacısını görmək üçün Qoki kəndinə getdi. Anam daha fürsəti qaçırmaq istəmədi. Məni tez hazırlayıb qardaşı Osman əfəndi ilə İstanbula yola saldı."*



***Şəkidə üsuli-cədid məktəbinin müəllim və şagirdləri. Mərkəzdə soldan:***
***Ömər Faiq Nemanzadə və məktəbin rus dili müəllimi, əslən Qarabağdan olan Qəzənfər.***
*Şəklin üst hissəsində "Şəkidə inşa olunan birinci üsuli-cədid məktəbi 1894", alt hissəsində isə "Şəki məktəbi müəllim və şagirdləri" sözləri yazılıb. SMF, № 5738*

Şəkidə açılmış üsuli-cədid məktəbinin təsisçiləri yerli ziyalılar və tacirlər idi. 1894-cü ildə Şəkiyə gələn Ömər Faiq Nemanzadə bu məktəbdə işləməyə başlayır, burada Azərbaycan türkcəsini, tarix, coğrafiya, hesab və imla dərslərini tədris edir. O, məktəb haqqında xatirələrində yazırdı: *"İlk vaxtlarda mənim verdiyim dərslərdən cocuq ataları əsla xoşlanmırlardı. Birinci, ikinci siniflərdə şəriət dərsi əlbəttə vaxtsız və lüzumsuz idi. Lakin hər kəsin istədiyi Quran və şəriət idi. Buna görə də birinci sinifdə şəriət ağızdan, əzbərdən öyrədilirdi. İkinci ildən dördüncü sinfin şagirdləri tarix və coğrafiya dərslərindən maraqlanmağa və bunlara əhəmiyyət verməyə başladılar. Bir az sonra isə coğrafiya və tarix dərslərini yaxşı bilənlər məktəbdə adlanmağa, Quranı əzbərləyən yaxşı səslilərin şöhrətlərini dayandırmağa müvəffəq oldular. İş bununla qalmadı.*

*İki il qabaq coğrafiya dərslərini istəməyən ataların namaz qıldıqları yerin divarları cocuqları tərəfindən çəkilən boyalı xəritələrlə bəzənməyə başladı. Hələ tarix dərsi ümumiyyətlə şagirdlərdə, xüsusilə bəzi şagird atalarında maarif və mədəniyyətə qarşı böyük istək və rəğbət oyandırdı.*

*Mənim verdiyim dərslər içində o vaxtlara məxsusi bir də imla dərsləri vardı. Mən bu dərsi öz düşüncə və məsləkim üçün mədəni bir təbliğat – propaqanda vasitəsi etmişdim.*

*Qabaqlarda bu mövzunu şagirdlərə hekayə surətində anladır, sonra onu cümlə-cümlə təkrar edib yazdırırdım. Sonralarda isə istənilən mövzunu hekayə kimi söyləyib anladır, sinifdə ikən özlərinə əzbərdən yazdırırdım. Şagirdlər mövzu yazmaq üsulu öyrənəndən sonra onlara Avropa mədəni həyatına, azadlıq və hürriyyətə, sultan və çar istibdadına, özümüzün cəhalətinə, istibdadın cəhalətə söykəndiyinə, hökumət və onların agentləri olan mollaların cəhalətdən istifadə etdiyinə, istibdadı yıxmaq üçün qabaqca onun dayandığı cəhaləti yıxmaq, eyni zamanda yeni elm və yeni texnikanı mənimsəməmiz lazım olduğuna dair mövzular verir, yazdırırdım və bu yazıları evlərində ata və qardaşlarına, hətta qohumlarına da oxumalarını tapşırırdım. Bu yol ilə onlarda elmə, azadlıq və hürriyyətə az-çox həvəs oyandırmağa çalışırdım. Bu dürlü çalışmanın nəticəsində görürdüm ki, şagirdlər tarix və coğrafiya dərslərini sevə-sevə oxuyur və onlara olduqca əhəmiyyət verirlər. Bu da o deməkdir ki, onların düşüncələrində bir dəyişiklik əmələ gəlmiş və bu yolla məktəb dinçilikdən yavaş-yavaş uzaqlaşıb az-çox bir elm ocağına oxşamağa başlamışdır. Bu o zaman üçün az bir müvəffəqiyyət deyildi."*



***Ömər Faiq Nemanzadə qohumları ilə.***
***1915-ci il, Ahalsıx, Azqur.*** *SMF, № 5739*

Soldan – birinci sırada: Ömər Faiqin qardaşı Süleyman Nemanzadənin arvadı Ətiqə xanım, Süleyman Nemanzadə, Ömər Faiqin qızı Kamilə, Ömər Faiqin dayısı nəvəsi Ənsar Əfəndiyev, Ömər Faiqin anası Həmidə xanım, Ömər Faiqin dayısı nəvəsi Bəhram Əfəndiyev, Ömər Faiq əfəndi, oğlu Kamil, həyat yoldaşı Abidə xanım.

İkinci sırada: Ömər Faiqin dayısı nəvəsi Ənvər Əfəndiyev, Ömər Faiqin dayısı oğlu Tofiq Əfəndiyevin arvadı Gülçin xanım, Tofiq Əfəndiyev, Ömər Faiqin bacısı qızı Nəzirə Pepinova (Əhməd bəy Pepinovun bacısı), Ülfət xanım Nemanzadə və Dərviş ağa Orconikidze.

Şəklin arxasında "1915-ci il" yazılsa da, Ömər Faiq Nemanzadənin qızı Bəxtli xanım müsahibələrinin birində fotonun 1914-cü ildə çəkildiyini bildirmişdi. Onun sözlərinə görə, şəkil Ömər Faiq əfəndinin həyat yoldaşı Abidə xanımın Azqura qonaq çağrıldığı vaxt (burada Abidə xanın üçüncü övladı Adiləyə hamilədir) çəkilmişdi.

Hal-hazırda Qazaxıstanda yaşayan Rafiq Əfəndiyevin təqdim etdiyi sənədlərdən və verdiyi məlumatlardan aydın olur ki, Ömər Faiq Nemanzadənin dayısı oğlu, 1869-cu il təvəllüdlü Tofiq Həmid oğlu Əfəndiyev polis orqanlarında çalışırdı, kapitan rütbəsi var idi. 1923-cü ildə sovet cəza orqanları tərəfindən güllələnmişdi (digər sənəddə onun 1924-cü ildə sürgündə vəfat etdiyi yazılıb). Tofiq Əfəndiyevin Gülçin xanımla (qızlıq soyadı Maçabeli) (1878-1949) izdivacdan 4 oğlu – Zabur (1898-1938), Ənvər (1900-1938), Ənsar (1903-1938), Bəhram (1910-1967) dünyaya gəlmişdi. Böyük qardaşlar antisovet fəaliyyətinə görə həbs olunmuş və güllələnmişlər. Bəhram Əfəndiyev isə teatr rəssamı kimi fəaliyyət göstərmiş, 1961-ci ildə Azərbayan SSR Əməkdar incəsənət xadimi adına layiq görülmüşdür.



***Ömər Faiq Nemanzadə (oturanlar arasında soldan birinci)***
***Azqur kəndindəki evində qonaqlar arasında. XX əsrin əvvəli.*** *SMF, № 5740*




***Ömər Faiq Nemanzadənin həyat yoldaşı Abidə xanım, oğlu Kamil və Nəzirə Pepinova***
***1917-ci il, oktyabr.*** *SMF, № 5741*



***Ömər Faiq Nemanzadə Gəncə Ziraət (Kənd Təsərrüfatı) Texnikumunun müəllim və tələbələri arasında. 1924-cü il***

*Ömər Faiq əfəndidən solda əyləşən maarif xadimi, pedaqoq, milli təhsil tarixinin önəmli simalarından biri Mədinə Qiyasbəylidir (1889-1938). SMF, № 535/14*



***Ömər Faiq Nemanzadə. 1930-cu illər.*** *SMF, № 5742*


عمر فائق نعمانزاده

Омаръ Фаикъ
Нуманзаде

Ахалцыхъ

***Ömər Faiq Nemanzadənin vizit kartı.*** *SMF, № 3070*



***Ömər Faiq Nemanzadə həyat yoldaşı Abidə xanımla. 1930-cu illər.*** *SMF, № 5743*



***Ömər Faiq Nemanzadə ailəsi ilə. Soldan: qızları Kamilə (1913-1992), Bəxtli (1917-2008), həyat yoldaşı Abidə xanım (1881-1961), oğlu Kamil (1911-1986), qızı Adilə (1915-1992). Bakı, 1930-cu il.*** *SMF, № 5744*

Ömər Faiq əfəndi ilə Abidə xanımın övladlarının hamısı ali təhsil almışlar. Kamil Nemanzadə Anna Starikova ilə ailə həyatı qurmuş, onların Valeri (1945-2021), İsgəndər (1948) və Naidə (1952) adlı övladları dünyaya gəlmişdi.

Kamilə Nemanzadə ilə İsgəndər Pepinovun Rauf (1939-1999), Fuad (1943), Gülarə (1950) adlı övladları olmuşdu.

Adilə Nemanzadə Əsəd Əzizzadə ilə ailə həyatı qurmuş, onların övladları Əkrəm (1942) və Nigar (1948) Əsədzadələrdir.

Bəxtli Nemanzadə ailə həyatı qurmamışdı.




***Ömər Faiq Nemanzadə ailəsi ilə istirahətdə. Soldan: Abidə xanım, Kamil, Kamilə, yerdə əyləşənlər – Adilə, Bəxtli. Borjom, 1934-cü il.*** *SMF, № 5745*




***Kamilə və Adilə Nemanzadələr.***
***Borjom, 1934-cü il.*** *SMF, № 5746*






***Ömər Faiq Nemanzadə Batumda istirahətdə.***

*Şəklin arxasında Ömər Faiq əfəndinin xətti ilə "Kamilimə. Batum, 15/4 -35" sözləri yazılıb. SMF, № 5747*






***Ömər Faiq Nemanzadə Batumda istirahətdə.***
*Şəklin arxasında Ömər Faiq əfəndinin xətti ilə "Bəxtlimə. Batum, 15/4 -35" sözləri yazılıb. SMF, № 5748*

Bəxtli xanım müsahibələrinin birində atasının həbsini belə xatırlayırdı: *"Qonşu uşaqları atalarının boynuna sarılanda anamızdan soruşardıq ki, baba nərədə? "Baba türmədə", - deyə cavab verərdi. "Nədən türmədə?". "Millət, millət dediyi üçün türmədə...".*

*- Faiq əfəndinin həbs olunduğu gün yadınızdadır?*

*- 1937-ci il iyulun 17-də gecə evdə yatmışdıq. Üç bacı ayrı otaqda yatmışdıq. Yay tətiliydi, üçümüz də Bakıda oxuyurduq. O birilər Tibb İnstitutunda, mən isə Neft Akademiyasında. Birdən itlərimiz hürdü. Heç unutmamışam, baba qapını döyüb bizi çağırdı, gələn hündür və arıq bir erməniydi. Ömər Faiqi o gecə həbs etdilər. Gedərkən dedi ki, özünüzü itirməyin. Tezliklə görüşəcəyik. İstintaq zamanı stolun üstündə qranyonnı stəkan var imiş. Stəkanı götürüb venasını kəsir. Onu sağaldıb, sonra güllələyirlər. Ümumiyyətlə, bizimkilərin hamısını tutdular, güllələdilər...*

*Baba güllələnəndən sonra həyat bizimçün çox ağır oldu. Elmi iş götürmüşdüm. Xalq düşməninin qızının ixtiyarı yoxdu ki, elmi iş müdafiə etsin. 1943-cü ildən institutda işləyirdim. 1949-cu ildə məni işdən çıxardılar."*



***Ömər Faiq Nemanzadənin güllələnmədən öncə çəkilmiş sonuncu şəkli. 1937-ci il.*** *SMF, № 5770*



***Kamilə Nemanzadə, ?***
***Kislovodsk, Olxovka çayı, 29 iyul 1936-cı il.*** *SMF, № 5749*




***Kamilə Nemanzadə***
***Yessentuki, 8 sentyabr 1936-cı il.*** *SMF, № 5750*



***Soldan: Kamilə Nemanzadənin həyat yoldaşı İsgəndər Pepinov, Kamilə xanım və b.*** *SMF, № 5751*

İsgəndər Pepinov (1909-1972) Ömər Faiq Nemanzadənin bacısı oğlu Əhməd bəy Pepinovla əmiuşaqları idilər. 1931-1936-cı illərdə Azərbaycan Sənaye İnstitutunda memarlıq ixtisası üzrə təhsil almış, Meşə Təsərrüfatı və Sənayesi Nazirliyində çalışmış, Balakəndə meşə kombinatının direktoru olmuşdu.



***İsgəndər Pepinov (ayaq üstə duran).*** *SMF, № 5752*




***Kamil Nemanzadə (aşağı sırada) və İsgəndər Pepinov (üçüncü sırada) istirahətdə. 1932-ci il, Abastuman (Gürcüstan).*** *SMF, № 5753*



***Kamil Nemanzadə (açıq rəngli pencəkdə) və İsgəndər Pepinov (ayaq üstə duran) istirahətdə. 1932-ci il, Abastuman (Gürcüstan).*** *SMF, № 5754*



***Ömər Faiq əfəndinin oğlu, hərbi həkim Kamil Nemanzadə. 1937-ci il (həbsdən bir qədər əvvəl).***
*SMF, № 5755*

Tibb İnstitutunun məzunu olan Kamil Nemanzadə "pantürkçü" damğası il həbs olunmuş, Sibirə sürgün edilmişdi. Ömrünün 20 ilini Sibir düşərgələrində keçirib, orada ailə həyatı qurub. 1956-ci ildə bəraət qazanaraq, Bakıya - ailəsinin yanına dönmüş və ömrünün sonuna qədər həkim kimi çalışmışdı. Bacısı Bəxtli xanımın xatirələrindən: *"Qardaşım Kamili də 23 yaşında tutdular. Həkim idi. Tiflisdə kisənin içərisinə salıb döymüşdülər. Sonra onu Sibirə göndərdilər. 37-dən 56-ya qədər Sibirdə qaldı."*



***Ömər Faiq Nemanzadənin həyat yoldaşı və qızları. Soldan: Kamilə, Abidə xanım, Bəxtli, Adilə. Abidə xanımın qucağındakı uşaq Kamilə Nemanzadənin oğlu Rauf Pepinovdur. Bakı, 1940-cı il.*** *SMF, № 5756*



***Ömər Faiq Nemanzadənin həyat yoldaşı Abidə xanım və böyük qızı Kamilə.***
***Qusar, 19 iyul 1955-ci il.*** *SMF, № 5757*




***Ömər Faiq Nemanzadənin anadan olmasının 100 illiyi münasibətilə keçirilmiş yığıncağın iştirakçıları.***
***Bakı, Azərbaycan SSR Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutu, 7 mart 1973-cü il.*** *SMF, № 5758*

Soldan: Rza Təhmasib (rejissor, aktyor), Kamil Nemanzadə (Ömər Faiq Nemanzadənin oğlu), Sevda Pepinova (Əhməd bəy Pepinovun qızı), Lütfəli Abduallayev (xalq artisti və Sevda xanımın həyat yoldaşı), Əliheydər Orucov (dilçi alim), Abbas Zamanov (ədəbiyyatşünas, tənqidçi), Rauf Pepinov (Ömər Faiq Nemanzadənin nəvəsi), ?, İmran Qasımov (xalq yazıçısı), Əkrəm Əzizzadə (Adilə Nemanzadənin oğlu), Rəsul Rza (xalq şairi), Gülarə Pepinova (Ömər Faiqin nəvəsi), Həmid Əfəndiyev (Abidə xanım Nemanzadənin qohumu), Məmməd Arif Dadaşzadə (ədəbiyyatşünas, akademik).
Oturanlar: Afət Ləmbəranskaya (Nəzirə Pepinovanın qızı), Bəxtli, Kamilə, Adilə Nemanzadələr.





***Ömər Faiq Nemanzadənin anadan olmasının 100 illiyi münasibətilə keçirilmiş yığıncağın iştirakçıları. 7 mart 1973-cü il.*** *SMF, № 5759, 5760*



ФГ—17894 Заказ № 77 Тираж 360

Баку, Али Асланова, 80, тип. „Красный Восток"

ДӘ'ВӘТНАМӘ

Пригласительный билет



ҺӨРМӘТЛИ ЈОЛДАШ!

Азәрбајҹан ССР Елмләр Академијасы, Азәрбајҹан Јазычылар вә Журналистләр Иттифаглары, Низами адына Әдәбијјат Институту Сизи көркәмли

**Азәрбајҹан јазычысы вә публисисти**
**ӨМӘР ФАИГ НЕ'МАНЗАДӘНИН**
**анадан олмасынын 100 иллији**

мүнасибәтилә кечирилән јығынҹаға дә'вәт едир.

Јығынҹаг 1973-ҹү ил мартын 7-дә күндүз саат 2-дә Низами адына Әдәбијјат Институтунда (Нәриманов проспекти, 31) кечириләҹәкдир.

Тәшкилат комиссијасы

УВАЖАЕМЫЙ ТОВАРИЩ!

Академия наук Азербайджанской ССР, Союзы писателей и журналистов Азербайджана, институт литературы имени Низами приглашают Вас на собрание, посвященное

**100-летию со дня рождения**
**видного азербайджанского писателя и публициста**
**ОМАРА ФАИКА НЕЙМАН-ЗАДЕ**

Собрание состоится 7 марта 1973 года в 2 часа дня в зале заседания института литературы им. Низами (проспект Нариманова, 31).

Оргкомиссия

***Azərbaycan SSR Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda Ömər Faiq Nemanzadənin anadan olmasının 100 illiyi münasibətilə keçirilən yığıncağa dəvətnamə.***
*SMF, № 5761*



***Məmmədzəki Dursunzadə (orta cərgədə soldan üçüncü) müəllim və şagirdlərlə.***
***XX əsrin 20-30-cu illəri.*** *SMF, № 5762*

Şəklin arxasında "Məmmədzəki Dursunzadə. Ədəbiyyat dərsi" sözləri və Sədinin, həmçinin başqa şairlərin beytləri yazılıb.

M.Dursunzadə (1893-1937) Ömər Faiq Nemanzadənin həyat yoldaşı Abidə xanımın əmisi oğlu idi. O, həmçinin Ömər Faiqin bacısı qızı Nəzirə Pepinova ilə ailə həyatı qurmuşdu. Brüsseldə Müəllimlər İnstitutu kursunu bitirmiş və Almaniyada hüquq təhsili almış M.Dursunzadə 1920-ci illərin əvvəlindən 1937-ci ilədək Bakıda pedaqoji məktəbdə, sonra isə Yer Quruluşu Texnikumunda müəllimlik edib. 1937-ci ildə Gürcüstana gedib və orada repressiyaya uğrayıb.




***Ahalsıx türk natamam orta məktəbin birinci buraxılışı.***
***Orta cərgədə soldan ikinci – Münirə Dursunzadə. 1937-ci il.*** *SMF, № 5763*

Şəklin arxasında rus dilində *“Dursunzadə Münirə xanım, Məmmədzəki Dursunzadənin bacısı, Azərbaycan Parlamentinin katibəsi, Abidə xanımın əmisi qızı”* yazısı var.



***Soldan: naməlum, Ömər Faiq Nemanzadənin bacısı oğlu Zəki bəy Pepinov (1898-1954), Şəfiqə Əfəndizadə (1883-1959)*** *SMF, № 5764*

Qori müəllimlər seminariyasını, daha sonra isə Moskvada Şərqşünaslıq İnstitutunu bitirmiş Zəki bəy Pepinov Əhməd bəy və Məmməd bəyin kiçik qardaşıdır. Moskvada aspiranturada təhsil almış, elmi işlə məşğul olmuşdu. 1941-ci ildə "antisovet təbliğatı aparmaqda, vətənə xəyanət və casusluqda" günahlandırılaraq həbs edilmiş və 1944-cü ilə qədər Qazaxıstanda sürgündə yaşamışdı.

Şəfiqə Əfəndizadə isə Azərbaycanın ilk maarifpərvər qadınlarından biri, publisist, yazıçı idi. Hacı Zeynalabdin Tağıyevin Bakıda açdırdığı qızlar məktəbində, şəhər rus-türk qız məktəbində müəllimə işləmişdir. Sonrakı illərdə mədəni quruculuq işlərinə cəlb olunmuş, qadın müəllim kadrlarını hazırlayan pedaqoji məktəbdə dərs demişdir.



***Ömər Faiq Nemanzadənin bacısı oğlu Məmməd bəy Pepinov (1894-1953).*** *SMF, № 5765*

Qori müəllimlər seminariyasının, daha sonra isə Azərbaycan Politexnik İnstitutunun məzunu olan Məmməd bəy Pepinov Ömər Faiq Nemanzadənin bacısı oğlu, Əhməd bəy və Zəki bəy Pepinovların doğma qardaşı idi. 1931-1937-ci illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda dərs deyib. 1937-ci ildə "antisovet fəaliyyətinə görə" həbs edilib, Sibirə sürgün olunub.

### *İstifadə olunmuş mənbələr və ədəbiyyat:*

Azər Turan. Bəxtli bu dünyadan bəxtsiz getdi... / "Ədəbiyyat qəzeti", 22 iyun 2019-cu il, s. 16-17.

Hüseynov R. Millətin zərrəsi. Bakı, 2001.

M.Ə. [Məhəmmədəmin Rəsulzadə]. Vicdan sızlayır / "Azərbaycan" qəzeti (1918-1920). IV cild (Yanvar 1919). Transliterasiya edənlər M.Gəncəli, A.Ağaoğlu. Bakı, 2022.

Mərdanov M., Tahirzadə Ə. 1920-ci ilədək ali məktəblərdə oxumuş azərbaycanlılar. VI cild. Bakı, 2021.

Muradov N. Ömer Faik Numanzade və Azerbaycan düşüncü tarihindeki yeri / Azerbaycan düşünce tarihi. C. II. Ankara, 2021, s. 391-424.

Nemanzadə Ö.F. Xatirələrim / Çapa hazırlayan, müqəddimənin və şərhlərin müəllifi Ş.Qurbanov. Bakı, 1985.

https://omarfaig.info/ veb-saytı.

Ömər Faiq Nemanzadə. Seçilmiş əsərləri / Tərtib edəni, ön sözün və izahların müəllifi Ş.Qurbanov. Bakı, 2006.

Ömər Faiqin İngiltərədə yaşayan nəticəsi: "Mirzə Cəlil babamın qollarında can verib" - Müsahibə / https://kulis.az/xeber/media/omer-faiqin-ingilterede-yasayan-neticesi-colorredmirze-celil-babamin-qollarinda-can-veribcolor-musahibe-33836

*Qeydlər üçün*

***Dizayner:*** ***Lalə Məmmədova***